


دوشنبه 19 آذر 1397 - 08:00

# Parisd yaayan azrbaycanllar thlkddir

Hazrda Fransada vziyyt dyimz olaraq qalr. Hkumtin tkliflri il “sar jiletli”lr razla glmyiblr. Tbii ki,“ .”bu baxmdan grginlik davam edir

**Arannews-Hdf14.az xbr verir ki, bunu Modern.az-a aqlamasnda Parisdki “Azrbaycan evi”nin rhbri, Azrbaycan Dostlar Assosiasiyasnn ba katibi Mirvari Ftliyeva Parisdki itialar rh edrkn deyib.**O bildirib ki, bəzi etirazçılar nə istədiklərini belə bilmirlər:““Sarı jiletli”lər adı altında istər sağçı ekstremistlər, istərsə də qatı milliyyətçilər Parisdəki asayişi pozurlar. Bunlara həm də dağıdıcı qüvvələr demək olar. Bu da məsələni daha da ağırlaşdırır. Bəziləri nə istədiklərini artıq bilmirlər. Sadəcə dağıtmaqla məşğuldurlar. Bu da insanlarda qorxu hissi yaradır”.Mirvari Fətəliyeva iğtişaşlardan danışarkən azərbaycanlıların təhlükəsizliyini də vurğulayıb:“Azərbaycanlıların iğtişaşlarda hər hansı təzyiqə məruz qalmasına gəlincə, deyə bilərəm ki, bir neçə gün öncə Azərbaycanın Fransadakı səfirliyi bu barədə məlumat vermişdi. Həftənin şənbə və bazar günü evdən şəhər mərkəzinə çıxmamaq tövsiyə edilib. Öncədən edilən xəbərdarlığın nəticəsi olaraq azərbaycanlılar üçün hər hansı təhlükə yoxdur. Əlbəttə, iğtişaşlar əsasən Parisin mərkəzində baş verir. Şəhərdən kənarda həyat öz axarı ilə davam edir. Ümumilikdə siyasi baxımdan gərgindir. Gərginliyin nə vaxt bitəcəyi isə məlum deyil”.Xatırladaq ki, benzinin qiymətinin artmasına qarşı çıxan “Sarı jiletli”lər hərəkatının etirazları 17 noyabrda başlamışdı. Kütləvi aksiyalar nümayişçilərin polislə toqquşmalara səbəb olub, avtomobillərin, dükanların və bankların məhv edilməsi ilə müşayiət .olunur


قدرت گرفته از پرتال شمس - ITShams.ir